Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına
Respublika Uşaq Kitabxanası



# Mollanəsrəddinçi şair

**Əliqulu Qəmküsarın 140 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2020**

**Tərtibçilər:** **Könül Səmədzadə**
**Sevil Əhmədova**

**Redaktor:** **Könül Ağazadə**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Mollanəsrəddinçi şair:** Ə.Qəmküsarın 140 illiyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. K. Ağazadə. - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2020. – 26 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2020**

## Tərtibçidən

Qəmküsar (Əliqulu Ələkbər oğlu Nəcəfovun təxəllüsü) (1880-1919)-şair, publisist, jurnalist. Yaradıcılığa 1904-cü ildə "Şərqi-Rus" qəzetində başlamış, 1906-cı ildən "Molla Nəsrəddin" jurnalında "Cüvəllağı", "Cüvəllağı bəy", "Sarsaqqulu bəy" imzaları ilə iştirak etmişdir. 1813-1917-ci illərdə "Molla Nəsrəddin" jurnalının ikinci müdiri və baş redaktoru olmuşdur. Məqalələrində dini fanatizm, cəhalət, qadın hüquqsuzluğu, çarizmin müstəmləkə siyasəti, İran, Türkiyə istibdadı kəskin tənqid edilirdi. "Molla Nəsrəddin" jurnalının millətçi burjua mətbuatına qarşı, dilin, yazının sadəliyi və xəlqiliyi uğrunda mübarizəsində fəal iştirak etmişdi. Mirzə Cəlil, M.Ə.Sabir, Əli Nəzmi və digər mollanəsrəddinçilərlə şəxsi əqidə dostluğu etmişdir.

Əliqulu Qəmküsar 1916-cı ildə "Ölülər" komediyasının Bakıda tamaşaya qoyulmasının fəal iştirakçılarından biri və Şeyx Nəsrullah rolunun ilk ifaçısı olub.

## Bölmə I

**Cəsarətlə öz sözünü dedin sən,**
**Qalib çıxdın döyüşlərdən dözümlə.**
**Şair, bu gün,-dostun Sabir demişkən,**
**Adın qaldı, bəs deyilmi, bizimlə?!.**
**(Əli Saləddin)**

Əliquli Qəmküsar XX əsr realist ədəbiyyatımızın, xüsusilə məşhur "Molla Nəsrəddin" ədəbi məktəbinin tanınmış nümayəndələrindən biridir. Onun adı M.Ə.Sabir, Ə.Nəzmi, M.S.Ordubadi kimi görkəmli satirik şairlərimizlə birlikdə çəkilir, yad edilir.

1906-cı ildə "Molla Nəsrəddin" jurnalının nəşrə başlaması, bir çox başqa müasirləri kimi, mətbuat aləmində ilk addımlarını atan Ə.Qəmküsarın qarşısında böyük yaradıcılıq imkanları açır və onun bir satirik şair, publisist kimi yetişməsində mühüm rol oynayır. Gənc şair tərəddüd etmədən ictimai mübarizənin bütün sahələrində qabaqcıl, demokratik mövqelərdə dayanan "Molla Nəsrəddin" jurnalının cəbhəsinə keçir və tezliklə onun ən fəal əməkdaşlarından biri olur.

Təsadüfi deyildir ki, sonralar böyük ədibimiz C.Məmmədquluzadə səmimiyyətlə deyirdi: "Molla Nəsrəddin" tək bir müəllifin əsəri deyil, "Molla Nəsrəddin" bir neçə mənim əziz yoldaşlarımın qələmlərinin əsərinin məcmuəsidir ki, mən də onların ancaq ağsaqqal yoldaşıyam. Bu əziz yoldaşlarımızın biri də mərhum Əliqulu Nəcəfovdur.

Bu sözlərdə böyük həqiqət vardır. Məlumdur ki, Ə.Qəmküsar “Molla Nəsrəddin” jurnalında ardıcıl olaraq şeir və felyetonlarını çap etdirməklə yanaşı, həm də bir müddət onun ikinci redaktoru olmuşdur. Bu dövrdə o, ağsaqqal qələm yoldaşı C.Məmmədquluzadə ilə birlikdə jurnalın bütün qayğılarını çəkmiş, ədəbi, ictimai mübarizəsinə istiqamət vermiş, onu mürtəce burjua mətbuatının, ipticanın hücumlarından ləyaqətlə qorumuşdur.

Ə.Qəmküsar sözün əsl mənasında mollanəsrəddinçi şairdir. Mollanəsrəddinçilərin isə aydın, döyüşkən ictimai mübarizə proqramları, özlərinə məxsus yazı manerası, orijinal üslub və ifadə formaları vardı. Bu üslub öz mükəmməl bədii ifadəsini nəsr və publisistikada C.Məmmədquluzadənin, şeirdə isə böyük Xalq şairi Sabirin yaradıcılığında tapmışdı. Ə.Qəmküsar da bir sənətkar kimi məhz bu ədəbi məktəbin yetişdirməsi idi. Onun yaradıcılığında həm mövzu, həm də üslub xüsusiyyətlərinə görə öz böyük müəllimləri ilə birləşən, yaxın, oxşar cəhətlər çoxdur. Lakin belə bir oxşarlıq Ə.Qəmküsar istedadının, ədəbi irsinin ictimai əhəmiyyətini, orijinallığını kölgədə qoymur. Əksinə, eyni məqsəd və qayədən, məfkurə birliyindən, cəhalətə ictimai ədalətsizliyin bütün formalarına ümumi nifrətdən doğduğu üçün onu görkəmli mollanəsrəddinçilərlə bir sıraya çıxarır.

Mollanəsrəddinçilərin atəş açdıqları müştərək tənqid hədəflərindən biri dini cəhalət olmuşdur. Ə.Qəmküsar da yaxşı başa düşürdü ki, əsrlər boyu şüurlarda kök salmış dini anlayışları, çürük inam və etiqadları sarsıtmadan xalqı əsarətdən, zülm və cəhalətdən xilas etmək, mədəni tərəqqi yoluna çıxarmaq qeyri-mümkündür. Buna görə də onun müxtəlif illərdə yazdığı “Axund”, “Bambılı”, “Pərişan ola”, “Can ələ düşməz”, “Hacılar”, “Məkkə”, “Babı”, “Şeytan fəhləsi”,

“Şəriətdə şərm yoxdur” kimi şeir və felyetonlarında dini təxəyyülün doğurduğu avamlıq, nadanlıq, mənəvi, zehni durğunluq kimi ictimai bəlalar kəskin satirik boyalarla ifşa edilir, məharətlə lağa qoyulur.

Ə.Qəmküsar, xüsusilə xalq üçün böyük bəlaya çevrilmiş dini mərasimlərə qarşı daha ardıcıl mübarizə aparmışdır. Şair “Sinəzən” satirasında cəhalətin və mürtəce dini adətlərin günahsız qurbanı olan kütlələrə müraciət edir, onları öz gülünc, acınacaqlı vəziyyətlərindən çıxış edərək qəflət yuxusundan oyatmağa çalışır.

Ə.Qəmküsarın satiraları içərisində irticanın tənqidinə həsr olunmuş şeirlər xüsusi yer tutur. Ümumiyyətlə, şair yaradıcılığının bütün mərhələlərində irticaya, dövrünün mürtəce qüvvələrinə qarşı ardıcıl mübarizə aparmış, öz səadətləri, müstəqillikləri uğrunda çarpışan xalqlara, milli azadlıq hərəkatına dərin rəğbət bəsləmişdir. Xüsusilə Cənubi Azərbaycanda milli azadlıq uğrunda inqilabi mübarizələrin alovlandığı 1909-1911-ci illərdə başqa mollanəsrəddinçilərlə birlikdə Ə.Qəmküsarın da irticaya və onun başçılarına qarşı hücumları kəskinləşir, daha qəti, barışmaz xarakter alır. Şair bu dövrdə yazdığı “Bərəkallah”, “Əkildin”, “İranlılar” kimi satiralarında təkcə Səttərxan hərəkatını alqışlamaqla, ona öz rəğbətini bildirməklə kifayətlənmir, həm də xalqı irticanın fitnələrinə qarşı ayıq-sayıq olmağa çağırır, onlara öz dostu ilə düşmənini tanıtmağa çalışırdı. O, çürümüş taxt-tacını qorumaq üçün İranı yadlara satan, vətəni xarabaya çevirən müstəbid Məhəmmədəli şahı, Rəhim xan, Zilli Sultan kimi qaniçən millət düşmənlərini kəskin istehza hədəfinə çevirir, onların xain simalarını güclü, satirik boyalarla ifşa edirdi. Şair “Əkildin” rədifli satirasında inqilab qüvvələri qarşısında tap gətirə

bilməyib ikinci dəfə İrandan qaçmağa məcbur olan Məhəmmədəli şahı xalq adından ittiham edir, onun törətdiyi ağır cinayətləri bir-bir üzünə çırpır, rüsvayçı aqibətinə kinayə ilə gülür:

Qan içmək olub gərçi
əzəldən sənə pişə,
Getməzdi bu dövran belə
kamincə həmişə,
vurdun nə qədər mümkün
idi millətə tişə,
Tülkü kimi qaçdın yenə
meydandan əkildin.

İnqilabı demokratik ideyaların tribunası olan “Molla Nəsrəddin” jurnalı fəaliyyətinin bütün mərhələlərində öz varlığını, ictimai-ədəbi mövqeyini qorumaq üçün ardıcıl mübarizə aparmışdır. Bu mübarizədə o təkcə ruhanilərlə, müxtəlif təbəqələrdən olan cəhalətpərəstlərlə deyil, həm də millət adından ağız dolusu danışan, əslində yerli hakimlərə xidmət göstərən ikiüzlü, satqın burjua ziyalıları ilə də qarşılaşır və onlarla ciddi mübahisələrə girişməli olurdu. Son dərəcə kəskin, barışmaz xarekterdə gedən belə mübahisələrdə Ə.Qəmküsar da yaxından iştirak etmişdir. Onun bu sahədəki fəaliyyəti “Molla Nəsrəddin” jurnalında işləməyə başladığı illərdə daha fəal və səmərəli olmuşdur. Təsadüfi deyildir ki, o təkcə “Molla Nəsrəddin” in deyil, həm də onun yolunu izləyən mütərəqqi mətbuatın düşmənlərinə qarşı çevrilmiş “Kəlniyyət məcmuəsinin ruhuna”, “Qələm yoldaşım kefsizə”, “Şəlalə” kimi kəskin satiralarını da məhz bu dövrdə yazmışdır.

Birinci dünya müharibəsi, fevral və oktyabr inqilabları dövründə Ə.Qəmküsarın yaradıcılığı yeni və daha yüksək

mərhələyə qalxır. O, məhz bu illərdə M.Ə.Sabir ənənələrini tam ləyaqətlə davam etdirmiş, XX əsr ədəbiyyatımızda siyasi satiranın gözəl nümunələri sayılan məşhur əsərlərini yaratmışdır. 1917-ci ildə baş verən fevral inqilabını başqa mollanəsrəddinçilər kimi, Ə.Qəmküsar da böyük sevinclə qarşıladı. Rusiyada yaşayan bütün xalqların amansız düşməni olan çar istibdadının devrilməsindən ruhlanan şair yerli burjuaziyaya, bəy, xan ağalığına qarşı daha kəskin çıxışlar etməyə başlayır. Bir-birinin ardınca dövrün ictimai-tarixi hadisələri ilə yaxından səsləşən, onlara vaxtlı-vaxtında cavab verən "Pristav", "Bizə nə?", "Gücsüz edər ümumən hər güclüdən gilayə", "Başa gəlməz", "Varlı" kimi kəskin siyasi məzmunlu şeirlərini yazır. Burada şair, həm də əvvəlki kimi sözü üstüörtülü, dolayı yolla demir, tənqid hədəfinə birbaşa hücuma keçir, daha çox satiranın açıq müraciət formasından istifadə edir.

Ə.Qəmküsarın bu dövrdə yazdığı əsərlər içərisində "Əlaman" və "İngiltərə" satiraları xüsusi yer tutur. Coşqun siyasi pafosla yazılmış bu şeirlərdə Ə.Qəmküsar istedadının ən güclü, parlaq cəhətləri özünü göstərir.

Ə.Qəmküsar "Əlaman" və "İngiltərə" satiralarında bir vətəndaş sənətkar kimi onu düşündürən, narahat edən ictimai dərdləri, qayə və duyğularını adi sözlərlə ifadə etmir. Təsvirlərində əlvan satirik boyalara, obrazlı ifadə vasitələrinə, müxtəlif məcazlara, təzad, təkrir, bədii sual və bədii nidalara müraciət edir. Təbliğ olunan ictimai ideal, ideya hər yerdə məzmunla formanın daxili vəhdətindən doğduğu üçün təsirli, emosionaldır.

İndi getsən hər mahala
hər yetən dad eyləyir,

Dövreyi-mənhusi-
istibdadı dəryad eyləyir,
Bəs ki, xanlar, bəs ki,
bəylər zülmü bidad eyləyir,
Qalmayıbdır rəncbərlərdə dəxi
tabü təvan,
Əlaman bu müstəbidlərdən,
ilahi, əlaman.

Ə.Qəmküsar ömrünün sonuna kimi tutduğu mübarizə yoluna, ictimai məslək və əqidəsinə sadiq qalmış, xalqına, Vətəninə ləyaqətlə xidmət etmişdir. Şübhəsiz, onun ədəbi, ictimai fəaliyyəti, köhnə cəmiyyətin eybəcərliklərini məharətlə ifşa edən əsərləri satirik fikrimizin inkişafında, xüsusilə cəhalətə və mənəvi geriliyə qarşı mübarizədə mühüm əhəmiyyətə malik olmuşdur. Şairin böyük məslək dostu, həmkarı C.Məmmədquluzadənin dediyi kimi, nə qədər ki, "Molla Nəsrəddin" məcmuəsinin adı səslənir, onun əziz qələm yoldaşlarının qabaq sırasında Ə.Qəmküsarın adı həmişə hörmətlə yad olunacaqdır.

## Bölmə II

XX əsrin əvvəllərində ilk əsərlərini yazan və birinci rus inqilabı illərində tənqidi realizm cəbhəsinə keçib "Molla Nəsrəddin" ədəbi məktəbinə birləşən Azərbaycan realist ədib və şairlərindən biri doğulmasının 140 illiyi günündə adını hörmətlə yad etdiyimiz görkəmli satirik şair, alovlu publisist Əliqulu Qəmküsardır. (1880-1919)

Qəmküsar XX əsrin əvvəllərində xalqımızın mədəniyyət tarixinə bir çox mütərəqqi görüşlü münəvvər ziyalılar verən Naxçıvan mühitində anadan olmuş, məşhur maarifpərvər Məmmədtağı Sidqinin "Məktəbi-tərbiyə"sində təhsil almış, şərq dillərini dərindən öyrənmiş, bir sıra ölkələrə səyahətə çıxmışdır. Hələ gənc yaşlarında Culfada "Hümmət" təşkilatının fəal üzvü, Rusiya və İran inqilabçılarının yaxın dostu və silahdaşı kimi tanınmışdır.

Yuxarıda qeyd etdiyimiz kimi, XX əsrin əvvəllərində Azərbaycan tənqidi-realist ədəbiyyatının görkəmli nümayəndələrindən olan Əliqulu Qəmküsarın bu il 140 illik yubileyi qeyd olunur. Elə bu münasibətlə şairin yubileyi ilə bağlı bir çox silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Tədbirlərin keçirilməsində məqsədimiz oxucuları Əliqulu Qəmküsarın zəngin ədəbi irsi ilə yaxından tanış etməkdir. Respublikamızın bir çox təhsil ocaqlarında, məktəblərdə, kitabxanalarda və bir sıra mədəniyyət ocaqlarında tədbirlə bağlı hazırlıqlar gedir. Elə bu münasibətlə F.Köçərli adına Respublika Uşaq Kitabxanası olaraq bizim də üzərimizə böyük bir məsuliyyət düşür. Belə ki, Əliqulu Qəmküsarın klassik irsini daha yaxından təbliğ etmək üçün kitabxanada bir çox tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Yubilyarın anım günü münasibətilə ilk olaraq sərgilərin təşkil olunması

məqsədəuyğundur. “Əliqulu Qəmküsar – 140” adlı kitab sərgisində kitablarla yanaşı, dövri mətbuatda çap olunan qəzet və jurnal materialları, “Molla Nəsrəddin” jurnalının nümunələri və s. nümayiş olunur. “Əliqulu Qəmküsar – 140” adlı sərginin nümunəsini sizlər üçün təqdim edirik:

1. Başlıq: “Əliqulu Qəmküsar-140”;
2. Kitablarının nümayişi;
3. Dövri mətbuatda nəşr olunmuş materialların kartotekası;
4. Yubileylə bağlı nəşr olunmuş bukletlərin nümayişi;
5. Görkəmli şəxsiyyətlərin Əliqulu Qəmküsar haqqında söylədikləri;
6. Şeir parçası:
   Hər şəhərdə xandır, əyandır keçib iş başına,
   Hər cəhətdən üz görür öz qövmü, öz qardaşına,
   Get dolan kənd-kəsəyi, bax bir axan göz yaşına,
   Hər tərəfdə kamirandır bəy, əkinçi, bağrı qan,
   Əlaman bu müstəbidlərdən, ilahi, əlaman!

   Get Qazaxdan keç, Tovuzdan keç, özünü ver Gəncəyə,
   Gör necə vermiş rəiyyət bəylə pəncə-pəncəyə,
   Kəndliyə, rəncbərlərə bax bir olan işkəncəyə,
   Bax nə cür zülmdən qan ağlayırlar hər zaman,
   Əlaman bu müstəbidlərdən, ilahi, əlaman!

## Görkəmli şəxiyyətlər Əliqulu Qəmküsar haqqında

...Təəssüflər edirəm ki, Əliqulu Nəcəfov kimi həqiqi və ləzzətli şairimiz bu dünyadan vaxtsız getdi və məcmuəni öz köməyindən məhrum qoydu.

***

...Nə qədər ki, məcmuəmizin adı söylənir, onun əziz və qiymətdar qələm yoldaşlarının sırasında əziz yoldaşımız Əliquli Qəmküsar-Cüvəllağı bəyin adı həmişə "zindəbad" alqışları ilə zikr olunacaqdır.

***Cəlil Məmmədquluzadə,***
*Azərbaycan yazıçısı*

O gözəl natiq, şirin-zəban, dərin fikirli, geniş məlumat sahibi və insanı təəccübə gətirən hafizəli bir vücud idi...

***

Əliqulu Nəcəfzadəyə dəyən güllə "Molla Nəsrəddin" məcmuəsinin ürəyinə dəydi. Ona mən "Molla Nəsrəddin" məcmuəsinin ürəyi adı qoymaqda səhv etmirəm və cürətlə də bu sözü deyirəm.

***Əbdürrəhim bəy Haqverdiyev,***
*Azərbaycan yazıçısı*

Ə.Qəmküsar böyük ədəbi irs qoyub getməsə də, xalq səadəti uğrunda fədakar mübarizəsi və təvazökar yaradıcılığı ilə XX əsr ədəbiyyatımızın tarixində müəyyən izlər buraxıb getmişdir. XX əsr Azərbaycan ədəbiyyatının tarixində, xüsusən "Molla Nəsrəddin" jurnalının nəşri və mübarizəsi tarixində Əliqulu Qəmküsarın adı həmişə hörmətlə yad ediləcəkdir.

**Abbas Zamanov,**
*Əməkdar elm xadimi*

Azərbaycan ədəbiyyatı tarixinə mollanəsrəddinçi şair kimi daxil olmuş Əliqulu Qəmküsarın 140 illik yubileyi ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasında keçirilən tədbirlərdən biri də ***kitab müzakirəsi***dir. Kitab müzakirəsi oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Belə ki, belə tədbirlərdə iştirak edən oxucuların intellektual səviyyəsi ortalığa çıxır, onların müzakirələrdə iştirak etməsi kitab oxuma savadlarının artırılmasına təkamül yaradır. Müzakirəsinə toplaşdığımız kitabı sizə təqdim etməzdən əvvəl qeyd etmək istərdim ki, kitabda müəllif oxucusunu istedadlı Azərbaycan şairi Ə.Qəmküsarın həyat və fəaliyyəti, ədibin dünya görüşü və ədəbi baxışları, mütərəqqi "Molla Nəsrəddin" jurnalında çap olunan çıxışları ilə yaxından tanış edir. Müzakirəsinə toplaşdığımız "Kiçik pəncərədən görünən dünya" adlı kitabın müəllifi Qəmər Salamzadədir. Bildiyiniz kimi, Qəmər Salamzadə Əliqulu Qəmküsarın qızıdır. Müəllif bu kitabı atası Əliqulu Qəmküsarın əziz xatirəsinə ithaf etmişdir. Azərbaycanın ilk kinorejissor qadını hesab olunan Qəmər xanım bu kitabda özü haqqında az danışmış, amma atası Ə.Qəmküsarın həyat və yaradıcılığı haqqında dolğun məlumatlar vermişdi. Bu gün sizlərlə bu kitab haqqında yaxından tanış olub, onun müzakirəsi haqqında fikirlər irəli sürə biləcəyik. Bir sözlə, bu kitab müəllifin şahidi olduğu hadisələrin xronoloji xatirəsi yox, xalqımızın fikir tarixində misilsiz xidmətləri olan unudulmaz insanların həyatından kiçik lövhələrdir.




Müəllifdən: İnsan hafizəsi nə qədər zəngin bir xəzinə imiş. Ömür kitabının bir vərəqini qaldırdınmı, onun arxasından illərin,

ayların, günlərin, dəqiqə və anların xatirələri göz önünə gəlir. Narahat günlər, yuxusuz gecələr o xatirələrdən boy göstərir. Keçmişin əziz xatirələrini qələmə alırsan ki, heç nə unudulmasın. Elə bu niyyətlə qələm götürüb atası Əliquli Qəmküsarın keşməkeşli ömründən, oxuculara məlum olmayan səhifələrindən onun mühitindən, yaxınlarından, həm də Cəlil Məmmədquluzadə, Cəfər Cabbarlı, Hüseyn Cavid və başqa sənət xadimlərilə görüşlərindən danışır Qəmər Salamzadə...

Atam Əliqulu Qəmküsar şair, jurnalist, maarifpərvər bir adamdı. O, qardaşı Rzaqulu Nəcəfovla hələ 1909-cu ildə Culfada həvəskar teatr təşkil edib orada bir aktyor kimi də fəaliyyət göstərmişdi.

"Əgər məktəb bilik verirsə, teatr da xalqın məişətində olan eybəcərliklərini göstərir, ona yaxşı ilə pisi seçməkdə kömək edir..."-deyirdi o.

Mənim uşaqlıq illərim şeir və musiqi ilə dolu bir mühitdə keçib. Atam qarmonda Azərbaycan muğamlarını çox ustalıqla çalar, kiçik əmim Rzaqulu isə məlahətli səslə oxuyardı. O, Füzulinin, Vaqifin qəzəllərini çox sevərdi. Onu mən evdə həmişə, heç olmazsa, dodaqaltı oxuyan görmüşəm.

Mən Culfada anadan olmuşam. Evdə mənə "çoxbilmiş", "əkəc" deyərdilər. Doğrudan da, yaşıma görə çox şeyi anlamağa, dərk etməyə başlamışdım.

Biz Culfada yaşayırdıq. Öz evimiz isə Naxçıvanda idi. Babam Məşədəli Əkbər Hacınəcəfoğlu ömrünün axır illərində Culfa gömrükxanasında "Komisyonçu" işləyirdi. Culfada yaşamaq üçün ev və evin həyət divarının dalında karvansara tikdirmişdi. Bir də uşaq ikən eşitdiyim, klub binası vardı ki, orada atam teatr cəmiyyəti təşkil etmişdi. Bu klubda atamın xahişi ilə, M.F.Axundovun Bakıdan göndərilmiş "Məstəli şah" komediyası, Ə.B.Haqverdiyevin "Bəxtsiz cavan", "Dağılan tifaq" faciləri və başqa pyeslər tamaşaya qoyulardı. Bəzən

Bakıdan Naxçıvan və Culfa şəhərlərinə qostrola gələn artistlər də həmin klubda çıxış edərdilər.

Bakıdan gələn artistlər, bəstəkarlar, musiqiçilər həmişə bizim evdə qonaq qalardılar. Əvvəla, evimizin genişliyi buna imkan verirdi. İkinci, anam Xəndan xanım olduqca qonaqsevər bir qadın idi.

Atam Əliqulu olduqca zarafatcıl, baməzə, hazırcavab, sözü həmişə adamın üzünə deyən bir adam idi. Həmişə cəmiyyət arasında, dost-aşna içində olmağı sevərdi. Dostlar da onu heç vaxt yalnız qoymazdılar. Evimiz həmişə atamın, əmimin dostları ilə dolu olardı. Çox vaxt Naxçıvan ziyalılarının hörmətli yazıçımız M.S.Ordubadinin Culfada açdığı çayxanada görüşləri olardı.

Xaricdən çayxana kimi görünən bu yer əslində Naxçıvan və Culfa tərəqqipərvər ziyalılarının, necə deyərlər, bir növ qərargahı idi. Burada azadlıq, hürriyyət, istiqlaliyyət sözləri tez-tez eşidilirdi. Burada xalqın mədəniyyəti və müqəddəratı haqqında qızğın söhbətlər gedərdi. Burada Şərqin, Azərbaycanın ölməz şairləri ilə bərabər Puşkinin alovlu sətirləri də oxunardı. Buranın daimi qonağı olan hər kəs polis tərəfindən şübhə altına alınardı.

Atamın gözəl hafizəsi vardı. O, Hafizin, Sədinin demək olar ki, bütün şeirlərini əzbərdən bilərdi.

Əbdürrəhim bəy Haqverdiyev Qəmküsar haqqında yazırdı: "Ə.Qəmküsar gözəl natiq, şirin-zəban, dərin fikirli, geniş məlumat sahibi və insanı təəccübə gətirən hafizəli bir vücud idi ki, uşaqlıqdan axır günədək hər nə əşar oxumuş idisə, hamısı hafizəsində idi".

1904-cü ildən Əliqulu Qəmküsar ardıcıl olaraq bir jurnalist kimi "Xadimimillət", "Sevdayi", "Culfalı", "Simurğ", "Cüvəllağı", "Qəmküsar", "Otaylı", "Sarsaqqulu bəy" və başqa imza altında mətbuatda fəal çıxış etməyə başlayır. Onun

felyetonlarının mövzusu həmişə aktual olur. İstər siyasətdə, istərsə də məişətdə zəmanəsinin nəbzini tutmağı bacarır.
1906-cı ildən etibarən Əliqulu "Molla Nəsrəddin"ə yazmağa başlayır və get-gedə fəal bir jurnalist kimi tanınır.

1911-ci ilin axırlarında Əliqulu eşidir ki, jurnal maddi böhran keçirdiyinə görə, Mirzə Cəlil "Molla Nəsrəddin" jurnalını tamamilə bağlamaq niyyətindədir. Bu xəbər Əliqulunu sarsıdır. Jurnalı almaq məqsədilə, o qardaşı Rzaqulunu Tiflisə göndərir ki, Mirzə ilə saziş yaratsın. Təəssüf ki, Mirzə Cəlil tərəddüd göstərir. Nəticədə 1912-ci ildə jurnal tamamilə bağlanır. Nəhayət, 1913-cü ilin yanvarında Mirzə Cəlil özü Əliqulunu Tiflisə dəvət edir. Elə bu günlərdə Əliqulunun həyatında ardı-arası kəsilməyən fəlakət üz verməyə başlayır; əvvəla bir-birinin dalınca iki qızını itirir və həkimlərin çıxartdığı nəticədən bəlli olur ki, arvadı Xəndan vərəm xəstəliyinə tutlubdur.

1912-ci ilin əvvəllərində, o, Culfadan Naxçıvana köçür. Onun bu günlərə aid şeirindən, dostlarına verdiyi şəklinin üstündə yazdığı bəzi parçaları xatırlayaraq:

Sındırıbdır çünki dövran büsbütün pəru balımı
Əksimə diqqətlə hər kəs baxsa, anlar halımı.
Çərxi gərdun saz kar olmur mənimlə doğrusu,
Qılmışam çox imtahan, öz bəxtü, öz iqbalımı.

Və yaxud məşhur artistimiz Mirzağa Əliyevə verdiyi foto şəklinin üstündə yazmışdı:

Təsviri pürməlalimi mütləq görən zavat
Anlar keçirmişəm necə əfsurdə bir həyat,
Gəldim cahana sanki həmişə bəla çəkəm.
Könlümdə vardı min əməlü min təhəssürat.
Dünyada bir mərami-dilim hasil olmadı.
Yağı olub mənə bütün əcrami-kainat.

Ə.Qəmküsar satirik jurnallardakı dəyərli satiraları, epiqramları, felyetonları ilə XX əsr Azərbaycan satirik

ədəbiyyatının gözəl nümunələrini yaratmışdır. O, başqa satiriklərlə sıx əlaqə saxlayır, onlara dərin ehtiramla yanaşırdı; Ə.Nəzmi ilə mübahisəyə girişir, M.Ə.Sabirin ruhunu hörmətlə yad edirdi.

Ə.Qəmküsar M.Ə.Sabirin istedadlı şagirdidir. O öz müəlliminin ədəbi cəbhəsinə sonadək sədaqətli qalmış, hadisələri Sabir kimi cəsarətlə qələmə almaqla yanaşı, "Çox da Rusiyyədə nəşr olundu ədalət, bizə nə?", "İndi qalmışlar təmamən intizar iranlılar" kimi bir çox şeirlərini də bilavasitə böyük müəlliminin əsərlərinə bənzətmişdir.

Bəli, əziz tədbir iştirakçıları ümid edirik ki, Salam Qəmərzadənin atası haqqında verdiyi geniş məlumatlardan az da olsa yararlandıq. Biz bu kitabı sizin ixtiyarınıza veririk. Kitabın dolğun və maraqlı məlumatlarla dolu olmasına heç şübhəmiz yoxdur. İstərdik ki, bu kitab sizin stolüstü kitablarınızdan biri olsun. Buradakı geniş və səmərəli məlumatlardan bəhrələnməyi və müzakirəsini sizlər üçün təqdim edirik.

Tədbirin sonunda Ə.Qəmküsarın müxtəlif illərdə "Molla Nəsrəddin" jurnalında nəşr etdirdiyi "Dəyənəklərindən" nümunələr veririk.

Bildir cümələrdə dükan açmazdı cəmaət,
Səd şükür, bu il qaldırılıbdır belə bidət.
Hər ildə məsəlman edə gər bunca tərəqqi,
Bir az keçər, aləm deyər: əhsən, belə millət!

"Molla Nəsrəddin"
8 dekabr 1910, №39

Bir rubaidə dörd qələt buraxır,
Barakallah, bizim müsəhhihlər.
Belə getsə, çərayidi_Qafqaz,
İşləri büsbütün tamam eylər...

“Molla Nəsrəddin”
30 dekabr 1910, №42

Musiqi nəğməsinin çöldə eşitsək səsini,
Mollamız evdə oturduqda qulağın tıxıyır.
Bimirəm, bəs nə əcəb tab eləyir məsciddə
Ki, çıxır mərsiyəxan şur ilə şahnaz oxuyur.

“Molla Nəsrəddin”
12 yanvar 1911, № 2

Təqrir ilə, təlaqətü nitq bəyan ilə,
Mənbərdə şeyx nərm eyləyir səngi-xarəni.
Lakin məriz olanda dəmi-ehtizaridə,
Qail deyil təbibə, sevr istixarəni.

“Molla Nəsrəddin”
28 fevral 1911, №9

Bizləri məfluk edən hər adəti-millətimizi
Əcnəbilər daima təyibü təlin eyləyir.
Leyk böylə iftizahatın qüsurun qanmayıb,
Bax, “İşıq”da gör Xədicə bir nə təhsin eyləyir

“Molla Nəsrəddin”
5 iyun 1911, №21

Görkəmli şair, tərcüməçi Əliqulu Qəmküsarın 140 illik yubileyi ilə bağlı F.Köçərli adına Respublika Uşaq Kitabxanasında ***ədəbi-bədii gecə***nin keçirilməsi də nəzərdə tutulmuşdur. Belə ki, bu tədbirə kitabxanaçı iki ay qabaqcadan hazırlaşır. İlk olaraq tədbirin ssenarisi hazırlanır. Tədbirdə iştirak edən qonaqlar müəyyənləşdirilir. Tədbir iki hissədən ibarət olur. Birinci hissədə çıxış və məruzələr dinlənilir. İkinci

hissədə isə şairin əsərlərindən, felyetonlarından səhnəciklər göstərilir. Tədbirdə iştirak edən qonaqlar Əliqulu Qəmküsar haqqında ürək sözlərini, xatirələrini danışdıqdan sonra söz poeziyaya verilir. “Əliqulu Qəmküsar və Azərbaycan səhnəsi” adlı tədbirin ssenarisini sizlər üçün nümunə veririk. Səhnədən Əliqulu Qəmküsarın portreti asılır. Yubileylə bağlı səhnə gül-çiçəklə bəzədilir.

Aparıcılar səhnəyə daxil olur:

**I Aparıcı:** Dinəndə yandı dilim,
Dinməyəndə dil yandı.
Nə dərdi gizlədə bildim,
Nə də şikar elədim.
(Ə.Qəmküsar)

Azərbaycan satirik ədəbiyyatının görkəmli nümayəndələrindən biri də Əliqulu Məşədi Ələkbər oğlu Nəcəfov Qəmküsardır (1880-1919) . Ə. Qəmküsar 1880-ci ildə Naxçıvan şəhərində yoxsul ailədə anadan olmuşdur. 1905-1912-ci illərdə Culfada işlərkən iran inqilabçılarına rəğbət bəsləmiş, onlara kömək göstərmişdir. Onun inqilabçı şair Səid Səlmasi ilə sıx əlaqəsi olmuş və sonra öz həmfikri haqqında bir neçə məqalə yazmışdır.

Ədəbiyyatımızın tarixinə mollanəsrəddinçilər adı ilə daxil olan yazıçıların sırasında Əliqulu Qəmküsar Nəcəfov fəxri yerlərdən birini tutur. O, bütün yaradıcılığı boyu mütərəqqi yazıçıların cəbhəsində olmuşdur, ardı-arası kəsilməyən təqiblərə mərdliklə sinə gərərək, istismar və cəhalət aləminin qara qüvvələri ilə ölüm-dirim mübarizəsi aparmışdır.

Səkkiz yaşından molla məktəbinə davam edən Əliqulu ərəb və fars dillərini öyrənmiş, 1894-cü ildə molla məktəbini buraxıb,

zamanın görkəmli müəllimlərindən Mirzə Məmmədtağı Sidqi Səfərovun (1854-1903) yenicə açdığı üsuli-cədid məktəbinə daxil olmuşdur. “Məktəbi-tərbiyə” adı ilə məşhur olan bu məktəb Naxçıvanın o zamankı mədəni həyatında mühüm rol oynamışdır. Bu məktəb həm mollaxanalardan, həm də o vaxt azərbaycanlılar üçün olan rus məktəblərindən əsaslı surətdə fərqlənirdi.

**II Aparıcı:** Əliqulu Qəmküsar səhnə fəaliyyətinə 1909-cu ildən başlamışdı. O vaxt Naxçıvan teatr truppasında maraqlı surətlər yaratmışdı. Sonra o, Culfada aktyorluq və rejissorluq fəaliyyətini davam etdirmişdi. Səhnə sənətinə yaxından bağlı olan şair teatra böyük əhəmiyyət vermiş, onu həyatdakı nöqsanların islahında ən kəsərli bir vasitə hesab etmişdi. O, yazırdı: “İslam və İslamiyyətin vasileyi-nicat və rəhbəri-səadəti bir qaç şeyə mərbut isə, o cümlədən biri, bəlkə ən birincisi teatrdır”.

Oxucular səhnəyə daxil olur. Ə. Qəmküsarın “Şeytan fəhləsi” adlı felyetonundan bir səhnəcik səsləndirirlər.

-Kabla İmamverdi, neçə vaxtdır Məşədi Orucəli heç görükmür, bir ayrı yerə-merə getməyibdir ki?

-Xeyr, kablayı, bakda isqoru var, neçə gündür əlləşir, düzəldə bilmir, başı qarışıqdır.

-Xub, Hacı Hümmət kişi niyə buralara heç üzükmür, naçaqzad deyil ki?

-Xeyr, kablayı, qəhvə dükanında dərviş nağıl deyir, nağıla qulaq asır, başı çox qarışıqdır.

-Bəs Kabla Fətulla əmi necə, o niyə bizlərə məhəl qoymur? Bundan əzəl tez-tez gəlib-gedərdi, məndən inciyib-eləməyibdir ki?

-Xeyr, kablayı, traktirdə məşğuliyyət üçün qonçinka oynuyurlar, kozr oynuyurlar, başı qarışıqdır, heç eşiyə-zada çıxa bilmir.

Müsairlərinin çoxuna nisbətən Ə.Qəmküsar az yazmışdır. Ancaq məsələ sayda yox, təbii ki, sanbaldadır. Onun bədii icadı mənalı, tutarlı, ədəbi və siyasi-ictimai baxımdan kəsərlidir. Şairin ciddi şeirləri də. Yumoristik yazıları da, sərt gülüşlə yoğrulmuş satira və sarkazmları da vardır. Publisistika sahəsində onun qələmindən "Qarğalar", "İrəvan səyahətim" və başqa bir sıra hədəfə sərrast tuşlanmış, ictimai və ədəbi-bədii baxımdan tutarlı felyetonlar çıxmışdır.

Ə.Qəmküsar "Ölülər"in ilk tamaşasından sonra C.Məmmədquluzadə ilə birlikdə "Ölülər"i oynamaq üçün, orta Asiyada, Volqaboyu və Qafqazın bir sıra şəhərlərində olmuşdu. 1917-1919-cu illərdə Tiflis, Gəncə, Naxçıvan, İrəvan və s. yerlərdə göstərilən tamaşalarda da iştirak etmişdi. M.Mərdanov yazırdı ki, "tamaşaçılar bir yana qalsın, biz aktyorlar da Mirzə Əliqulunun oyununa valeh olmuşduq". Rza Təhmasib isə qeyd edirdi ki, "mən "Ölülər"in Ə.Qəmküsarsız tamaşalarını çox görmüşəm. Lakin mübaliğəsiz deyə bilərəm ki, Ə.Qəmküsarın iştirakı və rəhbərliyi ilə yaradılan "Ölülər"də nümayiş etdirilən sənətin təntənəsini, onun köhnə dünyanı yandırıb yaxan həqiqi mənzərəsini heç zaman hiss etməmişəm".

M.A.Əliyev deyir: "Mən Ə.Qəmküsarla üç dəfə "Ölülər" pyesində oynamışam. İki dəfə Bakıda, bir dəfə Gəncədə, mən İsgəndəri, o isə Şeyx Nəsrullah rolunu oynayırdı. Qəmküsar ruhaniləri hərtərəfli tanıdığı, onlara yaxşıca bələd olduğu üçün Şeyx Nəsrullah rolunu fövqəladə bir məharətlə oynayırdı. Mən onun oyununun mislini sonralar da görə bilmədim. Əliqulu Qəmküsar həm səhnədə, həm yaradıcılığında həm də həyatda ruhanilərin qənimi idi".

Buna görə də fanatiklər, yenilik və sənət düşmənləri 1919-cu il yanvarın 28-də onu öz qapısında güllə ilə vurub öldürdülər. M.A.Əliyev ürək yanğısı ilə yazırdı: "artist yoldaş, Sənin o vəhşi

qatilin nəinki bir tək şeir aləminə, bəlkə türk səhnəsinə səni bizim əlimizdən almaqla böyük bir zərbə vurdu”.
1919-cu ildə Qəmküsarın öldürülməsi ilə əlaqədar onun aktyorluq fəaliyyəti geniş qeyd edilmişdir. Demək olar ki, bütün məqalə müəllifləri Qəmküsarın aktyorluq istedadından danışır, onun ölümünü Azərbaycan səhnəsi üçün böyük itki sayırdılar.

Şairin öldürülməsi xəbəri şəhərin zəhmətkeşlərini və mütərəqqi ziyalılarını dəhşətə gətirdi. Qəmküsarın dəfni böyük xalq nümayişinə çevrildi. Şəhər meydançalarının birində və qəbiristanlıqda keçirilən mitinqlərdə çıxış edənlər qatillərin cəzalandırılmasını tələb etdilər. Lakin qatillər cəzasız qalır.

Hər xalqın tarixində zaman-zaman böyük şəxsiyyətlər, istedadlar yaranır. Bu şəxsiyyətlər öz əməlləri, xidmətləri ilə mənsub olduğu xalqını yüksəldir, irəliyə, inkişafa sövq edir. Xalq da öz növbəsində bu şəxsiyyətləri, bu istedadları bir qanun olaraq nəsildən-nəslə aparır. Bu cərəyan cəmiyyətin qanunudur. Vay o xalqa ki, istedadlarına xor baxa. O xalqın gələcəyi mütləq tənəzzül edəcəkdir.

Bütün bunlar onu deməyə əsas verir ki, Ə.Qəmküsar Azərbaycan səhnəsinə təsadüfən bağlanmamış, bu bağlılıq onun həyatının gənclik dövründən, ta ömrünün sonuna kimi davam etmişdir.

Ə.Qəmküsar ömrünün sonuna kimi tutduğu mübarizə yoluna, ictimai məslək və əqidəsinə sadiq qalmış, xalqına, Vətəninə ləyaqətlə xidmət etmişdir. Şübhəsiz, onun ədəbi, ictimai fəaliyyəti, köhnə cəmiyyətin eybəcərliklərini məharətlə ifşa edən əsərləri satirik fikrimizin inkişafında, xüsusilə cəhalətə və mənəvi geriliyə qarşı mübarizədə mühüm əhəmiyyətə malik olmuşdur.

Və beləliklə, onun ölməz adı və nəcib əməlləri realist ədəbiyyatımızın tarixində, qədirbilən xalqımızın xatirəsində həmişə yaşayacaqdır.
Tədbir şair Əliyar Yusiflinin "Qəmküsar" adlı şeiri ilə başa çatır.

Zaman ilk arzunu sovurdu göyə,
Özünü tufanlar qoynuna atdı.
Dünyanın dərdini çəkəsən deyə,
Səni od ürəkli şair yaratdı.

Gördün ki, kəndxuda başda turp əkir,
Molla diz altına döşəyir noxud.
Qışqırdın, milləti arxaya çəkir
Millətin önündə yeriyən axund.

Qazı yolu kəsib, cibi soyanda
Qəzəbdən yaşardı gözlərin sənin.
Nadan başımıza "ağıl" qoyanda,
Mərmiyə çevrildi sözlərin sənin.

Qəlbinin gözüylə min bəla görüb,
Min kədər önündə ayaq saxladın.
Sabirlə, Cəlillə dəsmal götürüb,
Millətin dərdinə gülüb-ağladın.

El-oba uğrunda qalandın oda,
Bəla yollarını şölənlə kəsdin.
Vətənin qoynunda dönüb palıda,
Vətənin üstündə yarpaq tək əsdin.

Millətə tuşlanan güllə önündə
Şeir dəftərinlə qoşa göründün.

Lalələr açıldı geniş sinəndə,
Sevdiyin qırmızı bayrağa döndün.

Heykələ çevrilən söz sənətinlə
Bugünkü şairlər arasındasan.
Başımı ucaldan o qeyrətinlə
Ölməz igidlərin sırasındasan.

## Ədəbiyyat siyahısı

**Qəmküsar Ə.** Seçilmiş əsərləri. - Bakı : Şərq-Qərb, 2006. - 168 s. - (Müasir Azərbaycan ədəbiyyatı).

**Haqqında**
**Kitablarda**

**Axundov N.** Azərbaycan satirik ədəbiyyatının görkəmli nümayəndələrindən biri də Əliqulu Qəmküsardır // Azərbaycan satirik junalları (1906-1920-ci illər). – Bakı : Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı, 1968. – S.136-137. – kiril qrafikası ilə.

**Kərimov İ.** Əliqulu Ələkbər oğlu Nəcəfov - təxəllüsü Qəmküsar (1880-1919) // Azərbaycan teatr tarixi. - B. : Elm, 2008. - S. 544-546.

Qəmküsar (Əliqulu Ələkbər Nəcəfovun təxəllüsü) // Cəlil Məmmədquluzadə : ensiklopediya. – Bakı : Şərq-Qərb, 2008. – S. 154.

Qəmküsar (Əliqulu Ələkbər Nəcəfov (1880 Naxçıvan-1919 Tiflis) ) // Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. 2 cilddə. – Bakı : Lider, 2005. – C.2. – S.149.

**Dövri mətbuatda**

**Abbaslı T.** "Qəmbərqulu", "Cüvəllağı"... : bu "təbəssüm"lü imzaların alt qatında milli qəm qələmli Əliqulu Qəmküsar... // Mədəniyyət. - 2019. - 5 iyun. - № 40. - S. 6.

**Dünyaminqızı Q.** O, həm də mətbuatımızın zinəti idi : Əliqulu Qəmküsarın publisistik yazıları, satirik şeirləri, felyetonları təkcə dövrünün deyil, elə bu günün də diqqətəlayiq nümunələridir // Kaspi. - 2017. - 29 mart. - № 52. - S. 15.

**İsmayıl Z.** Əliqulu Qəmküsar irsi və dil problemi // İki sahil. - 2020. - 14 aprel. - № 60. - S. 15.

**Qasımov R.** Ədəbiyyatımızın və mədəniyyətimizin Qəmküsarı // 525-ci qəzet. - 2020. - 26 fevral. - № 22. - S. 21.

**Ədibə həsr olunmuş əsərlər**

**Salamzadə Q.** Kiçik pəncərədən görünən dünya. - Bakı : Azərnəşr, 1990. - 160 s. - kiril qrafikası ilə. – Müəllif Qəmər Salamzadə ədibin qızıdır.

# Mollanəsrəddinçi şair

**(metodik vəsait)**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:info@clb.az**
**URL:www.clb.az**

F.Köçərli adına Respublika
Uşaq Kitabxanasında
çap olunmuşdur.
Sifariş: 23
Çapa imzalanmışdır: 18.05.2020
Tirajı:100
Pulsuz